SOCIAL

PARADIGM

AN INTERNATIONAL JOURNAL OF SOCIAL SCIENCES

*Social Paradigm, 2021 4 (1): 34-41*

# Factors influencing the formation of tolerance towards non-Muslims in the time of the Safavids

*Asgar Sucayat oğlu Ahmad* [1]

*The article is devoted to the study of the characteristics of the factors influencing the formation of a tolerant attitude towards non-Muslims in the time of the Safavids. It should be noted that as a result of the policy pursued by the Safavid ruling political and religious elite, non-Muslims living in the country were able to preserve their religious and ethnic freedom, and have the rights to preserve and develop their language and cultural values. Numerous sources confirm the existence of a tolerant attitude towards non-Muslims living in the country. A number of researchers studying the Safavid period also speak of the Safavids' tolerance of non-Muslims. For example, R. Mathieu, one of the well-known researchers of modern Safavid history, considers the Safavids to be an example of "pragmatic tolerance."*

***Keywords:*** *Safavids, non-Muslims, tolerant, zhimmi, Islamic law.*

***Received/Makale Geliş Tarihi: 01.03.2021***
***Accepted/Makale Kabul Tarihi: 14.05.2021***

## Giriş

Etnik və dini cəhətdən çox rəngarəng bir bölgədə meydana gələn və şiəliyi bölgədə hakim dini məzhəbə çevirən Səfəvi dövlətinin qeyri müsəlmanlara olan münasibətini dözümlü hesab etmək olar. Baxmayaraq ki, ayrı-ayrı Səfəvi hökmdarlarının zamanında və şiə üləmanın hakimiyyətə güclü təsir edə bildiyi məqamlarda müsəlman əhalinin sünni kəsimi, bir sıra sufi təlimləri və qulat düçüncənin daşıyıcıları ilə yanaşı, epizodik məqamlar olsa da qeyri-müsəlmanlara qarşı da təzyiqlərin və aqressiv münasibətlərin şahidi oluruq. Ancaq, ümumiyyətlə Səfəvilərin zamanında qeyri müsəlmanlara olan münasibəti dözümlü hesab etmək olar və onlar geniş ölçüdə haqq və hüquqlara sahib olmuşdular. Bunu o dövrə aid çoxsaylı mənbələr də təsdiqləyir. 1715-1718-ci illərdə I Pyotrun elçisi olaraq Səfəvi ölkəsinə səfər etmiş A.Volınski (1689-1740) öz yol qeydlərində, burada başqa dinlərə, xüsusilə də xristianlara dözümlü münasibətin olmasından bəhs edərək yazır: "... yezuitlər kimi digər ordenlərin... missionerləri və katoliklər burada böyük üstünlüklərdən istifadə edirlər və şah sarayında böyük inam, etimada malikdirlər; ...bir çox şəhərlərdə kilsələri vardır və açıqcasına, digər xristianları öz kilsələrinə yönəldə bilirlər... İranlılar buna əngəl törətmirlər" (1, s. 251). Karmelitlər və onların Səfəvi imperiyası ərazisindəki fəaliyyəti barədə "Karmelitlərin salnaməsi" adlı mənbədə onların burada rahat yerləşməsi və sərbəst fəaliyyət göstərə bilməsi ilə

[1] Baku Slavic University, asker57@gmail.com

bağlı xeyli məlumatlar yer almışdır. Mənbədə yer almış Karmelit ordeni rahibinin, Faustin ordeninin katibinə göndərdiyi bir hesabatda Şah Abbasın onlara yaratdığı şəraitə işarə edilərək deyilirdi: "Əziz qardaş, mənə inan. Bizə elə bir qərargah verilmişdir ki, Avropadakı monastırların heç yarısı buna tay ola bilməz" (2, s. 94-95). Keşiş Epipanius tərəfindən 25 dekabr 1631-ci il tarixində Romaya göndərilən başqa bir məlumatda isə deyilirdi: "Xristianlara qarşı münasibət bizi çox sevindirir. Bu, yeni şah hakimiyyətinin dinə münasibətində də özünü göstərirdi" (3, s. 315). XVII əsrdə yaşamış erməni tarixçisi A, Təbrizli (1595-1670) Şah Abbasın erməni xristianlara hərtərəfli dəstək verməsinə toxunaraq yazırdı ki, o "... ermənilərlə, xüsusilə də culfalılara dostluq edir, onlara hörmət bəsləyirdi... O tez-tez onların evlərinə qonaq gedir, onlarla birlikdə yeyib-içir və əylənirdi (halbuki, farslar xristianları bəyənmirdilər), həmçinin erməniləri öz evinə və süfrəsinin başına dəvət edir, onları öz əyanları ilə birlikdə şərəfləndirir və özünün naxararlarına (əyanlarına) göstəriş verirdi ki, onlar da bu cür etsin. İkincisi, o xristianların ödədiyi padşah vergisini, onların istədiyi şəkildə azaltdı. Üçüncüsü, əgər xristianlarla müsəlmanlar arasında kiçikliyindən və böyüklündən asılı olmayaraq hər hansı bir mübahisə və çəkişmələr, yaxud məhkəməyə aid olan işlər olardısa, o xristianları təmizə çıxarır və müsəlmanları isə günahkar hesab edirdi. Dördüncüsü, şah erməniləri İsfahana və ətraf kəndlərinə köçürərkən burada yaşayan çoxlu müsəlmanlar öz yaşayış yerlərindən uzaqlaşdırıldı və onların evləri və sahələri xristianlara verildi. Beşincisi, o öz iradəsi ilə əmr etdi ki, Culfanın və kəndlərin hər tərəfində, şəhər qalasının daxilində sadə və hündür kilsələr tikilsin; o xristianlara iltifat göstərir və özü də kilsələr tikilməsi üçün onlara nəsihət verirdi. (...) Nə vaxt ki, ölən adamı dəfn etmək üçün şəhərdən çıxardanda (ermənilər-Ə.Ə.) kilsə bayraqları ilə və gurultulu şarakanlar (xorla oxunan kilsə mahnıları-ƏƏ.) oxuyaraq bazardan keçirdilər, buna görə iranlılardan heç kim onları qınayan sözlər işlətmir və ya təhqir etmirdi (4, s. 79). Xristian təbəələrin haqq və hüquqlarını müdafiəsi ilə bağlı zamanımıza qədər gəlib çatan çoxsaylı şah fərmanları da dözümlü münasibətin olmasından xəbər verir.

Səfəvi dövrünün mühüm araşdırıcılarından olan Rudi Matthee Səfəviləri nə qədər "diqqətçəkiçi və paradoksal" olsa da, "praqmatik dözümlülüyün" nümunəsi hesab edir (5, s. 195). Türkiyəli araşdırıcı Cihat Aydoğmuşoğlu da I Şah Abbas zamanında qeyri-müsəlmanlara qarşı dözümlü münasibətin sərgilənməsindən bəhs edərək yazır: "... şiə-sünni çəkişməsi və döyüş dövrlərini bir kənara qoyası olsaq, şah Abbas dövründə İranda xüsusilə xristianlar – özəlliklə də ermənilər və ortodoks gürcülər, zərdüştlər və qismən də olsa, yəhudilər üçün dini bir dözümlülüyün və sərbəstliyin olduğundan bəhs edə bilərik" (6, s. 1336).

Qeyd edək ki, Səfəvilərin qeyri müsəlmanlara dözümlü münasibətini xarakterizə edərkən tarixi ənənələrdən, dövrün reallıqlarından, Səfəvi dövlətinin apardığı siyasətdən və s. qaynaqlanan dini, siyasi, iqtisadi və sosial-mədəni faktorların mühüm rol oynadığının şahidi oluruq. Bu faktorlardan çıxış edərək Səfəvilərin qeyri müsəlmanlara tolerannt münasibətin formalaşmasına təsir edən amilləri aşağıdakı kimi quruplaşdırmaq mümkündür.

Bu ilk növbədə İslam dininin fundamental əsaslarından qaynaqlanan prinsiplər və ənənələrlə bağlı idi. Qeyd edək ki, İslamın əhli kitab dinlərinə loyal münasibəti, bu dinlərə sitayiş edən xalqların İslam dünyasında sərbəst həyat sürmələrinə geniş imkanlar

yaradırdı. Orta çağlarda qeyri-müsəlmanlar, o cümlədən Azərbaycanda yaşayan müxtəlif xristian icmaları İslam dünyası içində öz dünyalarını yaratmışdılar. Kilsələr həmişə özlərinin müxtariyyətliklərini qoruyub saxlamış və müxtəlif bağlaşmalarla özlərinə güvənclər qazanmışdılar (7, s. 68*).*

İslam düşüncəsi, onun fundamental əsasları sayılan Quran və Sünnə müxtəlifliyə dözümlü münasibət sərgiləyərək, digər din və mədəni qrupların mövcudluğunu qəbul edirdi. Quran "Sizin hər biriniz üçün bir şəriət və bir yol təyin etdik" (8, s. 538), "Sizin dininiz sizə, mənim dinim mənə aiddir" ("Kafirun" surəsi, 6) deyərək, hər kəsin seçdiyi özünəməxsus inanc ilə bir "yol" qət edə bilmə imkanını tanıyır. İslamın müqəddəs kitabında bildirilir ki, xalqlar arasında qarşılıqlı münasibət və etimad onların bir-birini tanımasından keçir: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq..." ("Hucurat" surəsi, 13). İslam etnik və irqi ayrı-seçkiliyi rədd edərək insanlar arasında qarşılıqlı münasibətlərin qurulmasını təbliğ edirdi. Quran və Sünnədə "Dində məcburiyyət (zorakılıq) yoxdur" kimi bəyanlar mövcuddur. (əl-Bəqərə 256). İslam inancın güclə qəbul etdirilməsinin əleyhinədir. Quranda bu iş Allahın iradəsinə bağlanır. "Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?! (Bu sənin işin deyildir. Sənin işin ancaq İslamı təbliğ etməkdir") ("Yunus", 99). A.Toynbi İslam dininin meydana gəldiyi gündən geniş yayılma səbəblərini və İslamın başqa dinlərə qarşı dözümlü olduğunu vurğulayaraq yazır: "Yəhudi, xristian və zərdüştlük azlıqlarının İslam dünyasında öz varlığını indiyə qədər qoruya bilməsinin səbəbi Məhəmmədin onlara qismən dözümlü münasibəti olmuşdur; O, Quranda müsəlmanlara göstəriş verirdi ki, İslam dövlətinə tabe olan qeyri-müsəlman "Kitab əhli" ilə münasibətdə ola bilərlər" (9, s. 133).

Səfəvi şəriət hüququnda da qeyri müsəlmanların, o cümlədən xristianların idari və hüqiqi statuslarının başlıca mənbəyi İslam hüququndakı "zimmət əhli" ("Zimmə əhli" dedikdə, İslam ölkəsində yaşayıb dövlətə xüsusi vergi ödəyən, həmçinin hakim qanunlara tabe olub, xəyanət etməmək və s. barədə əhd-peyman imzalayan Kitab əhli (zərdüşt, yəhudi, xristian və s.) nəzərdə tutulur (10, s. 52)) ilə bağlı idi. Buna görə zimmilər İslam dövləti tərəfindən qorunmalı idilər. İmam Zeynalabidinə məxsus "Hüquq risaləsi"ndə zimmilərin hüquqları ilə bağlı deyilir: "İslam dininin pənahında yaşayan zimmə əhlinin (Kitab əhlinin) haqqı budur ki, Allah-Təalanın onlardan qəbul etdiyini sən də onlardan qəbul edəsən və onlar Allah-Təala ilə aralarında olan əhd-peymana vəfalı olana qədər onların haqqında heç bir zülmə (haqsızlığa) yol verməyəsən" (10, s. 52). Zəmanəmizə Səfəvilər dövrü ilə bağlı gəlib çatan bir çox mənbələrdə İslam hüququna istinad olunaraq zimmilərə qarşı olunan haqısızlıqların qarşısı alınmışdı. Məs., II Abbasın (1642-1667) şahlığı zamanı baş vəzir olan Məhəmməd bəy (Təbriz şəhərindən olan erməni əsilli qulam) tərəfindən İsfahanda (1556-cı ildə) yaşayan yəhudi və erməniləri müsəlmanlığa zorla keçirəndə Sədr-əzəm baş vəzirə bildirmişdi ki, müsəlman qanunvericiliyi İslam dininə zorla qəbula icazə vermir (11, s. 104).

İkincisi, bu Səfəvi dövlətinin yarandığı coğrafiyada fərqli xüsusiyyətlərə, dil və inanc sistemlərinə malik insanların bir arada yaşaya bilməsi və mədəniyyətlərini inkişaf etdirə bilməsi özəlliyi ilə bağlıdır. Bu torpaqlar tarixən müxtəlif dini inanc sistemlərinin kəsişdiyi və bir-birini əvəzləyən məkanlardan biri olmuşdur. Zamanla atəşpərəstlik,

xristianlıq və islam kimi fərqli inanc sistemlərini bətnində barındıran bu yerlər və onların sakinləri, bir-birinə hörmətlə yaşamağı ənənəyə çevirə bilmişdilər. Bu ənənələrin nəticəsi idi ki, qeyri müsəlmanlar heç vaxt bu torpaqlarda fərqli inanclara sahib olduqlarına görə ayrı-seçkiliyə və kütləvi repressiyalara məruz qalmadılar. Hansı ki, biz bu kimi hallara Avropada İspaniyanın müsəlman əhalisinin xristianlaşması zamanı rast gəlmədik.

Səfəvilərin qonşuluğunda və daxilində başqa dini icmaların mövcudluqları da tolerant mühitin formalaşmasına müsbət təsir göstərirdi. Ölkə ərazində yaşayan qeyri müsəlmanlarla təmasda olmaq, onlarla müxtəlifxarakterli qarşılıqlı münasibətlərin qurulması, xüsusilə də iqtisadi və kulturoloji, eləcə də birgə fəaliyyət və bəzən ölkənin çıxarları üçün birgə məsuliyyət də dözümlü münasibətin formalaşmasına köməklik edirdi. Bizcə kirvəlik institutu da bu cür münasibətlərin əsasında yaranmış bir institutdur.

Üşüncüsü, bu Səfəviləri hakimiyyətə daşıyan Qızılbaş tayfaları arasında geniş yayılmış "Hetrodoksi" və ya "xalq İslamı" adlandırdığımız bir inanc tipi ilə bağlı ənənələrin hələ də cəmiyyət üzvləri arasında yağın olması ilə bağlı idi. Bu müsəlmanlıq alayışı əsgi inancların bir sıra ideyalarını özündə yaşadan, digər dinlərə açıq və xöşgürü münasibət bəsləyən və "təsəvvüf ağırlıqlı bir mistik müsəlmanlıq anlayışı" (12, s. 259-260) idi. Xalq islamı həmçinin "şəriət məsələlərindən və teoloqların mübahisələrindən uzaq, doqmatik olmayan İslam anlayışına çevrilmiş bir inanc" (13, s. 20) tipi idi. İslamın sərt qanunlarından və ehkamlarından uzaq olan və sərbəst dini ənənələri ilə, kənar görüşlərə, ideyalara açıq olan bu müsəlman tipi qeyri müsəlmanlara, o cümlədən xristianlara tolerant münasibəti ilə fərqlənirdilər.

Dördüçüsü, bu on iki imam şiəliyini hakim məzhəbə çevirmiş Səfəvilərin ortodoks sünniliyi özünün başlıca düşməni hesab etməsi (sünnilərdə eyni dərəcə də şiələri özlərinin düşmənləri hesab edirdilər) ilə bağlı idi. Onlar sünniliyi və Osmanlı dövləti başda olmaqla onun müdafiəçisi qismində çıxış edən dövlətləri zəiflətmək üçün xristianlarla ittifaqa girmək, onlarla yaxınlıq etmək kimi hərəkətlərdən çəkinmirdilər. Məhz bu səbəblər üzündən Səfəvi hakim dairələri Avropanın xristian monarxları və Roma papası ilə yaxınlıq edir, missionerlərin ölkəyə gəlişinə və fəaliyyətinə icazə verilir, xristian elçilər və tacirlərlə xoş davranır və onlara lazım olan imkanlar yaradılırdı. Şah Abbasın bu yöndə apardığı siyasətlə bağlı İsgəndər bəy Münşi yazır: "Təbiətinin yaxşılığından onun fələyə yüksələn dərgahına daim elçilər gəlir, dostluq izhar edir, hər diyardan bol-bol töhfə və hədiyyələr gətirirdilər. Xristian padşahları və həzrət İsa – bizim peyğəmbərimizə və ona salam olsun – millətindən olan firəng sultanları, xristian padşahları, nemsələr, fransızlar, ingilislər, voləndislər (?), portuqallar, ispaniyalılar, papalar ölkələri arasındakı dərya və ümmanların çoxluğuna baxmayaraq, onun ədalətinin ətrafa yayılması və insanlarla bəyənilən rəftarına görə o həzrətlə münasibət yaradırdılar. Ali sarayı dilli-dilavər elçilər və hər ölkənin hədiyyələri ilə dolu olardı" (14, s. 1910).

Beşincisi, Səfəvilərin qeyri müsəlmanlara qarşı dözümlü münasibət sərgiləməsində iqtisadi amil də vacib rol oynamışdı. Bu, birinci növbədə, Səfəvi hökmdarlarının digər dinlərə mənsub insanların xidmətindən və işgüzar keyfiyyətlərindən faydalanmaları ilə bağlı idi. Bu baxımdan, Səfəvilər dövründə ölkənin iqtisadi həyatında mühüm rol

oynayan xristian ermənilәri, yәhudilәri vә buddist hindlilәri xüsusi olaraq fәrqlәndirmәk lazımdır. Ölkәdә ipәk, qiymәtli daşlar, şәrab kimi mәhsulların ticarәti onların inhisarında idi. Bu dini-etnik kәsimlәr eyni zamanda sәlәmçiliklә mәşğul olmaqla xeyli sәrvәt әldә edә bilmişdilәr. Sәfәvilәrin hakimiyyәtinin zәif olduğu mәqamlarda onlar, hәtta ölkәdәki iqtisadi vә siyasi proseslәrә tәsir etmәk gücündә idilәr. Bu qruplar arasında ermәnilәri (qriqoryan vә katolik mәzhәbindә olmaqla) xüsusi olaraq fәrqlәndirmәk lazımdır. Ayrı-ayrı Sәfәvi şahlarının zamanında onlar çox böyük iqtisadi güc toplayaraq ölkәnin xarici ticarәtinә demәk olar bütünlüklә nәzarәt edirdilәr.

Tolerantlıq mühitinin formalaşmasında başqa dindәn olanlarla bağlı peşә yasaqlarının olmaması da müәyyәn rol oynayırdı. Ona görә dә başqa İslam mәmlәkәtlәrindә olduğu kimi, Sәfәvi ölkәsindә dә xristianlar vә yәhudilәr çox qazanclı peşәlәrlә mәşğul olurdular. İslamın bu cәhәti ilә bağlı İsveçrәli şәrqşünas Adam Mets yazır: “Müsәlman imperiyasında adamı әn çox mat qoyan başqa dindәn olan mәmurların çoxluğudur. Müsәlmanlar bu mәmurlara tabe olurdular. Paradoks: bir tәrәfdәn yәhudilәri vә xris-tianları mәcbur edirdilәr ki, onları bildirәn nişanları gәzdirsinlәr. Onlara icazә verilmirdi ki, müsәlman evindәn hündür ev tikdirsinlәr (hәrçәnd bu yasaqlara çox az әmәl olunurdu). O biri tәrәfdәn isә hәmin dindәn olan mәmurlar müsәlmanlara әmr vә cәza verirdilәr” (15, s. 52-53). Başqa dindәn olanların bir xeylisinin Sәfәvi ölkәsinә, elәcә dә ucqarlardan mәrkәzi bölgәlәrdә yerlәşmәsi hәm dә iqtisadi miqrasiya faktoru ilә bağlı idi. Qeyri-müsәlman әhalini, xüsusilә dә ermәni vә gürcü xristianlarını, hindlilәri ölkәnin mәrkәzi bölgәlәrinә köç etmәyә vә iqtisadi fәaliyyәtlә mәşğul olmağa vadar edәn mühüm amillәrdәn biri dә dolanışıq imkanları әldә etmәk, sәrvәt toplamaq, ad-san qazanmaq vә s. kimi hallarla bağlı idi. Bu tezislә bağlı mәnbәlәrdә vә problemlә mәşğul olan araşdırıcıların әsәrlәrindә kifayәt qәdәr mәlumatlara rast gәlә bilirik. Ermәni salnamәçisi Arakel Tәbrizli Aqvan әyalәtindәn bir çox adlı-sanlı mәlik vә xristian ruhaninin, elәcә dә Dizax (4 kәnd) vә Daşlıdan xeyli xristian әhalinin öz istәklәri ilә İsfahana köç etmәlәrindәn vә onların şah tәrәfindәn hörmәtlә qarşılanmasından bәhs edәrәk yazır: “Şah Abbas onları tәriflәyәrәk, sәxavәtlә hәdiyyәlәr vә bәxşişlәr verәrәk, hәr gün yanına dәvәt edәrәk onların niyyәtlәri ilә bağlı söhbәt aparırdı” (4, s. 47).

Altıncısı, Sәfәvi cәmiyyәtindә tolerant mühitin formalaşmasında dini zәmindә olan qarışıq nikahların olması da mühüm rol oynayırdı. Orta әsrlәrdә, o cümlәdәn Sәfәvilәrin zamanında fәrqli zümrәdәn olan müsәlmanlarla digәr dinlәrin nümayәndәlәri arasında bu cür nikah münasibәtlәri geniş tәtbiq olunurdu. İslamın başqa dindәn vә etnik qruplardan olanlarla nikah әlaqәsinә girmәyә qadağa qoymaması da, bu işә müsbәt tәsir edәn amillәrdәn idi. Tarixdәn hamımıza yaxşı mәlumdur ki, Şah İsmayılın ana tәrәfdәn nәnәsi Uzun Hәsәnin xanımı Dәspinә Xatun (Katerina) Trabzon Rum hökmdarı Kalo İohannesin (Calo Johannes) qızı idi. Qeyd edәk ki, Katerina ömrünün sonuna kimi xristianlıqdan ayrılmamış vә ölәndәn sonra da Diyarbәkrdәki Aya Yorgi kilsәsinin hәyәtindә dәfn edilmişdir (16, s. 73). Sәfәvi şahlarından da bir çoxunun hәrәmindә başqa dindәn olan xanımlara rast gәlmәk mümkün idi. Mәsәlәn, Şah Tәhmasibin dörd gürcü vә çәrkәz (hәmin dövrdә onlar xristian idilәr) әsilli arvadı olmuşdu. Şah Tәhmasib öldükdәn sonra onun yetkinlik çağında olan doqquz oğlundan yeddisi Qafqaz mәnşәli xristian anaların övladları idi (17, s. 55). II İsmayılın xanımlarından biri çәrkәz mәnşәli idi (19, s. 34). Şah Abbasın hәrәmindә isә üstünlük gürcü, ermәni, rus vә çәrkәz mәnşәli

qadınlara məxsus idi (18, s. 279). II Şah Abbasın anası Anna xanım (xristian, çərkəz əsilli) və Şah Süleymanın anası Nikhət xanım (xristian, çərkəz əsilli) Səfəvi sarayında çox böyük nüfuza malik olmuş və proseslərə təsir etmək gücündə olmuşdular (20, s. 44; 21, s. 227). Qaydaya görə hərəmə girən qeyri-müsəlman qadınlar müsəlmanlığı qəbul etməli idilər. Ancaq bəzi mənbələrdə onların gizlində öz ibadətlərini sürdürməsi və inanclarına sadiq qalması haqqında məlumatlar yer almaqdadır. Səfəvi şahı Məhəmməd Xüdabəndənin oğlu şahzadə Həmzə Mirzənin xristian arvadı və Səfi Mirzə ilə Məhəmməd Mirzənin anaları öz dini inanclarını qorumuş və gizli olaraq ibadətlərini sürdürmüşlər. Eyni ilə də şahdan aşağı səlahiyyət sahibləri də digər dindən olanlarla nikah əlaqələrinə girirdilər. Xristian əyalətlərinə hərbi yürüşlər zamanı əsir götürülən qadınlarla evlənmək ənənəsi də geniş yayılmışdı. Yan Streys ağası (o, əsir kimi satılmışdı) Hacı Bayram Əlinin arvadlarından bəhs edər-kən onun beş arvadının olduğunu və bunlardan birinin (ən gözəli) Polşada doğulmuş holland əsilli xristian olduğunu yazır. Bu qadını Kazimirdə çalışan atasının malikanəsindən tatarlar 12 yaşı olanda oğurlamış və bazarda qul kimi Bayram Əliyə satmışdılar. O yazır "... təzə yadelli qadınların böyük ovçusu olan mənim sahibim, dər-hal ona aşiq olaraq, onunla evlənir və qısa müddətdə onu hamıdan üstün tutur" (22, s. 238). Yan, eyni zamanda onun sahibi tərəfindən sonradan on bir-on iki yaşlarında daha iki gürcü qul qızları aldığını və bunun 26 yaşlı xristian qadınını bərk qıcıqladırdığından da bəhs edir (22, s. 240). Yan Streysin məlumatları təsdiq edir ki, o zamanlar imkanlı müsəlman kişilər arasında qeyri müsəlman qadınlarla evlənmək ənənəsi geniş yayılmışdır. Azərbaycan ədəbi ənənələrində, xüsusilə də folklor ədəbiyyatında müsəlman olmayan qızlarla olan məhəbbət heykayətlərinin ("Əsli və Kərəm", "Aşıq Qərib", və s.) çox olması da belə bir ənənənin mövcud olmasından xəbər verir.

Ümumiyyətlə, bütün zamanlarda din fərqi olan qarışıq nikahlar cəmiyyətdə dözümlü mühitin formalaşmasında və dinlərarası qarşıdurmaların aradan qaldırılmasında mühüm rol oynamışdı. Əsasən müsəlman kişilərlə olan bu cür nikahlar ailədə İslam dini və onun prinsiplərinin dominant rol oynamasına və başqa dindən olanların İslam dinini qəbul etmələrinin vacib şərt olmasına baxmayaraq, həmin dinə qarşı mənfi münasibətin yumşalmasına və neytrallaşmasına kömək edirdi.

Yeddincisi, Ölkədə tolerant mühitin formalaşmasında erməni və yəhudilərin etnik elastikliyi də mühüm rol oynamışdı. Ölkə hakim təbəqəsi ilə dil tapmaq, mövcud şəraitə uyğunlaşmaq və inteqrə oluna bilmək bacarığı bu işdə mühüm rol oynamışdı. Məhz bu keyfiyyətləri ilə onlar Səfəvilərin güclü olduğu dövrlərdə ölkənin iqtisadi və siyasi həyatında aktiv iştirak etməklə böyük ölçüdə faydalanmağı bacardılar.

Sonda bir daha vurğulayaq ki, Səfəvi ölkəsində qeyri müsəlmanlara qarşı bəslənən dözümlü münasibət nəticəsində onlar öz dini və etnik özgürlüklərini qoruyub saxlaya bilmiş, öz dillərini və mədəni dəyərlərini yaşatmaq və inkişaf etdirə bilmək üçün haqq və hüquqlara sahib olmuşlar. Səfəvi hakim elitası və Səfəvi cəmiyyəti tərəfindən onların inanc və düşüncələrinə sayğı ilə yanaşılmış, azad şəkildə öz dini düşüncələri ifadə edilməsinə imkan yaradılmışdı.

**İstinadlar**

П.П. Бушев. Посольство Артемия Волынского в Иран в 1715-1718 гг. М., Наука, 1978. 288 с.

Л.А. Семенова. Орден кармелитов как орудие проникнове-ния европейцев в Иран (по материалам "Хроники кармели-тов") // Ближний и Средний Восток. Сборник сатей. М.:Наука, 1962, с.94-109.

A Chronicle of Carmelites in Persia: The Safavids and the PapalMission on the 17th and the 18th centuries. Editor H Chick,Introduction Rudi Matthee. Publisher: İ.B.Tauris: In 2 volumes.London, 2012. Pp. 1376.

Даврижеци А. Книга историй. Перевод с армянского, предис-ловие и комментарий Л.А.Ханларян. М.: Наука, 1979, 624 с.

R.Matthee. Safevî İranı Bir İmparatorluk Muydu? Çev. İlker Kül-bilge. Cihannüma. Tarih ve Coğrafya Araştırmaları Dergisi, Sayı III/2 – Aralık 2017, 179-208.

Aydoğmuşoğlu C. Safevi Hükümdarı Şah Abbas'ın Dinî Siyaseti.Turkish Studies - International Periodical For The Languages, Li-terature and History of Turkish or Turkic, Volume 6/3, Summer2011, p. 1329-1337.

*Ə.Əhməd. XII-XV* əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti. Bakı: Elm, 2012, 368 s.

Qurani Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov və V.M.Məmmədəliyev. Bakı: Olimp konserni, 1998, 656 s.

А. Дж. Тойнби. Цивилизация перед судом истории: Сборник / Пер. с англ. М.: Рольф, 2002. 592 с.

İ. İsmayilzadə. İslamda tolerantlıq: Quran və hədis prizmasından. Dövlət və Din, 2015-ci il, № 11 (40), s44-54.

Rula Jurdi Abisaab. Converting Persia: Religion and Power in the Safavid Empire. London: I. B. Tauris, 2004, XII + 219 pp.

C. Üçer. "Türk Boylarının Aleviliği ve Sünniliği Üzerine Bazı Dü-şünceler – Tokat Yöresinde Sünnileşenler (Dönükler) ve Ehl-i Beytçi Papahlılar Gibi Bazı Örneklerin Katkısıyla", Ondokuz Mayıs Üniversitesi İlahiyat Fakültesi Dergisi, sayı 20-21, Samsun, 2005, ss. 253-278.

K.Kehl-Bodrogi. Kızılbaşlar, Aleviler. Almanca'dan Çevirenler: Oktay Değirmenci, Bilge Ege Aybudak, Ayrıntı Yayınları, İstanbul 2012. 212 s.

İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi), II kitab (İkinci cildin ikinci yarısı). Fars dilindən çevirən: Ş. Fərzəliyev. Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2014. 1400 s.

А.Мец. Мусульманский Ренессанс. М.: "Наука". 1966. 280 с.

M.Ekinci. "Erdebil Tekkesi'nin Kurulusu, Gelismesi ve Anado-lu'daki Dinî ve Siyâsî Faaliyetleri", Basılmamış Doktora Tezi, Harran Üniv. Sos. Bil. Enst. Şanlıurfa, 1997. 610 s.

M.Dağlar. Safevi Devleti'nde Şah II. İsmail ve Muhammed Hu-dabende Dönemlerinde Kızılbaş Hâkimiyeti (1574-1587). Türk Tarihi Araştırmaları Dergisi Yıl: 3, sayı: 1, Bahar 2018. s.50-65.

C.Aydoğmuşoğlu. Şah Abbas ve zamanı. Yayınlanmamış doktora tezi. Ankara 2011, 320 s.

E.Erdoğan. Safevi Devleti'nde Harem. Türk Tarihi Araştırmaları Dergisi. Yıl. 2, Sayı 1, Bahar 2017. s. 25-47.

H.F.Farmayan. The Beginnings of Modernization in Iran: The Policies and Reforms of Shah Abbas I (1587-1629), Salt Lake City, Utah: Middle East Center University Of Utah, 1969, 25 pages.

Z. Hüseynli. Fəal qadın kimliyi (Səfəvilər dönəminin günümüzə təsiri). 21-ci əsrin pəncərəsindən Mədəniyyət və Kimlik Beynəlxalq Simpoziumun materialları 26-28 May 2014, II c. Xəzər Universiteti Nəşriyyatı, Bakı, 2016, səh.222-232.

Я.Я. Стрейс. Три путешествия. Пер. Э. Бородиной; ред. А. Морозова. М.: Соцэкгиз, 1935. 415 с.